Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Fevral 2024

# Nikahın bağlanması və həyat yoldaşının yanına köçməyə dair-məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Sənədlərin işlənmə müddəti bir qayda olaraq 3 aya qədər, ayrı-ayrı hallarda isə daha uzun müddət davam edir.

Əgər Sizin artıq nikahınız bağlanıbsa və ya Almaniyaya nikah bağlamaq üçün nişanlınızın yanına getmək istəyirsinizsə **ailə birləşməsi üçün viza almaq** məqsədilə aşağıdakı sənədləri təqdim etməyiniz tələb olunur:

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla (xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin *1 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi və ya Qeyri-Azərbaycan vətəndaşlarına verilən etibarlılıq müddəti qüvvədə olan Azərbaycanda yaşamaq haqqında icazə sənədi *(əsli + 1 ədəd surəti)*
- 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- Alman dili üzrə baza biliklərini(A1 səviyyəsi) təsdiq edən sertifikatlardan biri: Goethe-Institutunun və ya telc-institutunun „Start Deutsch 1“ sertifikatı, alternativ olaraq, Avstriyanın Alman Dili Diplomu (ÖSD) və ya TestDaF. *(əsli və 1 ədəd surəti)* (Xahiş olunur bu barədə daha ətraflı məlumatı „Həyat yoldaşının yanına köçmək üçün dil biliyinə dair sübut“ məlumat vərəqəsindən əldə edin)

**Artiq nikahın bağlandığı təqdirdə viza üçün əlavə olaraq aşağıdakı sənədlər təqdim edilir:**

- Nikah şəhadətnaməsi + alman dilinə edilmiş tərcüməsi *(əsli+1 ədəd surəti)*
- Doğum şəhadətnaməsi + alman dilinə edilmiş tərcüməsi *(əsli + 1 ədəd surəti)*
- Ərizəçi artıq bir dəfə evli olduğu halda: Nikahın pozulması haqqında qərar və ya şəhadətnamə *(əsli+1 ədəd surəti)*
- Almaniyada yaşayan həyat yoldaşı tərəfindən gondərilmiş qeyri-rəsmi dəvətnamə (alman dilində).
  - -Almaniyada yaşayan həyat yoldaşının yaşadığı ünvan
  - -Azərbaycanda yaşayan həyat yoldaşının şəxsiyyətinə dair dəqiq məlumatlar
- Almaniyada yaşayan həyat yoldaşın şəxsiyyət vəsiqəsinin yaxud pasportunun və hazırda etibarlı vizasının surətləri *(1 ədəd surəti)*

**Almaniyada nikahın bağlanması nəzərdə tutulan zaman əlavə olaraq aşağıdakı sənədlər təqdim edilir:**

- Almaniyada nikah bağlayacağınız VVAQ-dan nikahın bağlanması ucun butun şərtlərə əməl olunduğunu təsdiq edən sənəd *(əsli+1 ədəd surəti)*
- Nişanlınızın Almaniyada yaşamaq icazəsi haqqında qanunun 66-68-ci §-nı nəzərdə tutan 6 aydan köhnə olmamaq şərti ilə öhdəlik haqqında bəyanatı (Verpflichtungserklärung,). Bu sənəd Almaniyada xaricilərlə iş uzrə idarədən/Ausländerbehörde/əldə edilir. *(əsli+ 1 ədəd surəti)*

**Viza verilən zaman təqdim olunacaq əlavə sənəd:**

- Səyahət sığortası (etibarlılıq müddəti:90 gün, sığorta ödənişinin minimal məbləği 30.000 Avro civarında olmaqla habelə bütün Şengen dövlətləri üçün etibarlı olmalı, nəzərdə tutulan səfər tarixindən etibarən qüvvədə olmalı) **və ya**
- Almaniyada artıq sığorta olunduğunuz haqqında təsdiq sənədi. Ailə siğortası yalnız Almaniyada qeydiyyata düşdukdən sonra qüvvəyə mindiyinə görə, siz səfər etdiyiniz tarixdən birinci 10 günə etibarlı olan siğortanı təqdim etməlisiniz.

**Xahiş olunur nəzərə alasınız ki, Sizin Azərbaycanda verilən ailə vəziyyətinə dair sənədləriniz leqalizasiya olunmuş şəkildə təqdim edilməlidir. Leqalizasiyaya dair məlumatları Siz buradan əldə edə bilərsiniz: https://baku.diplo.de/az-az/service/-/2214624**

Sənədlərin baxılma zamanı, Almaniyadakı xaricilərlə iş uzrə məsul idarə (Ausländerbehörde) tərəfindən, Almaniyada yaşayan həyat yoldaşın (gələcək həyat yoldaşınızın) ərizəçinin sosial yardım almadan **yaşam xərclərinin maliyyələşməsi**, eləcə də siğorta xərclərininin öz üzərinə götürmə imkanını və kifayət edəcək ölçüdə mənzilin olub-olmamasını yoxlayacaqdır. Buna görə də sənədləri verərkən Sizin Almaniyada yaşayan həyat yoldaşınız haqqında məlumatların tam və doğru, dəqiq və oxunaqlı yazılmasına diqqət yetirin.